

# "Azərbaycan dilinin tədrisi ocağı" iki ölkə arasında mədəni əlaqələrin dərinləşməsinə xidmət edir

**Azərbaycan Respublikasının Türkiyədəki səfirliyi nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi milli mədəniyyətimizin, tariximizin və ana dilimizin təbliği istiqamətində davamlı layihələr həyata keçirir.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və Türkiyənin Qazi Universitetinin dəstəyi ilə sözügedən universitetdə "Azərbaycan dilinin tədrisi ocağı" yaradılıb. Ankarada keçirilən "Azərbaycan dilinin tədrisi ocağı"nın və Azərbaycan türkcəsi kurslarının açılış mərasimində Azərbaycan mədəniyyət nazirinin müavini Səadət Yusifova, Qazi Universitetinin rektoru Uğur Ünal, Azərbaycanın Türkiyədəki səfirliyinin əməkdaşları, eləcə də Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbərliyi iştirak ediblər.

"Azərbaycan dilinin tədrisi ocağı"nın rəmzi açılış lenti kəsilib.

Tədbiri giriş sözü ilə açan "Azərbaycan dilinin tədrisi ocağı"nın müəllimi Şəhla İbişova bildirib ki, bu ocaq ortaq tariximizin, "Bir millət, iki dövlət" anlayışının canlı şəkildə hiss olunduğu bir məkan olacaq. Dil kurslarında sadəcə qrammatika öyrədilməyəcək. "Biz burada birlikdə Azərbaycan tarixindən danışacağıq, klassik şeirləri, folklor nümunələrini dinləyəcəyik" deyən Şəhla İbişova bütün dərs vəsaitlərinin Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən təmin olunacağını bildirib. Daha sonra çıxış edən Qazi Universitetinin rektoru, professor Uğur Ünal Ankara ilə Bakı arasındakı köklü tarixi əlaqələrdən danışıb.

Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri - bizim kədərimizdir" və Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamlarını xatırladan rektor Azərbaycan dilinin tədrisinin Türkiyə üçün böyük əhəmiyyət daşıdığını deyib.

"Ankarada belə bir tədris müəssisəsinin olması çox vacibdir. Rektorluq olaraq bu təşəbbüsə dəstək verməyə davam edəcəyik", - deyə Uğur Ünal əlavə edib.

Daha sonra Azərbaycan mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, "Azərbaycan dilinin tədrisi ocağı" iki qardaş ölkə arasında mədəni əlaqələrin dərinləşməsinə xidmət edir.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov ölkəmizin qədim tarixi və zəngin mədəniyyətini qardaş ölkədə tanıtmaq istiqamətində görülən işlərdən danışıb.

Azərbaycan.- 2025.- 1 iyun (№ 113).- S.9.